# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# QƏRARI

**Bakı şəhəri** **№ 267/6** **20 oktyabr 2015-ci il**

**“Azərbaycan Respublikasının Auditorlar Palatasında kargüzarlığın aparılmasına dair Təlimat”ın hazırlanması barədə**

“Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimat”ın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 14 iyul tarixli Fərmanına uyğun olaraq Azərbaycan Respublikasının Auditorlar Palatasında kargüzarlığın aparılmasına dair sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov tərəfindən hazırlanmış Təlimatı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimat”ın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 14 iyul tarixli Fərmanına uyğun olaraq hazırlanmış “Azərbaycan Respublikasının Auditorlar Palatasında kargüzarlığın aparılmasına dair Təlimat” təsdiq edilsin (əlavə olunur).
2. “Azərbaycan Respublikasının Auditorlar Palatasında kargüzarlığın aparılmasına dair Təlimat”ın yüksək səviyyədə hazırlanmasını təmin etdiyinə görə sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova təşəkkür elan edilsin.
3. Auditorlar Palatasının struktur bölmələrinin rəhbərlərinə (Q.Bayramov, N.Talıbov, F.Qarayev, S.Gülməmmədov, M.Abbasov, V.Rəhimov, R.Cəfərli, F.Məmmədov) tapşırılsın ki, 2016-ci il 01 yanvar tarixindən öz struktur bölmələrində kargüzarlıq işlərinin bu Təlimatın tələblərinə uyğun aparılmasını təmin etsinlər.
4. Auditorlar Palatası Aparatının rəhbəri Q.Bayramova tapşırılsın ki, Palatanın struktur bölmələri tərəfindən kargüzarlığın bu Təlimatın tələblərinə uyğun yenidən qurulmasına nəzarəti həyata keçirsin.
5. Aparatın koordinatoru A.Seyidəliyevaya tapşırılsın ki, Auditorlar Palatasının struktur bölmələrində və Şura yanında Komitələrdə kargüzarlığın bu təlimatın tələblərinə uyğun aparılmasını təmin etsin.
6. Maliyyə və təsərrüfat idarəsinin rəisi V.Rəhimova və həmin idarənin təsərrüfat bölməsinin müdiri N.İsmayılova tapşırılsın ki, 1 (bir) ay müddətində “Auditorlar Palatasında kargüzarlığın aparılmasına dair Təlimat”ın tətbiqi ilə əlaqədar struktur bölmələrini zəruri dəftərxana ləvazimatları ilə təmin etsinlər.
7. Aparatın informasiya texnologiyaları üzrə mütəxəssisi R.Ələkbərova tapşırılsın ki, bu qərarın mətninin Auditorlar Palatasının internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**